# HEYDƏR ƏLİYEVİN YENİ NEFT STRATEGİYASI

**Zenfira Quliyeva**
0000-0003-3738-5226, *ADNSU*
*"Humanitar fənlər" kafedrası, dosent*
*zemfira.quliyeva43@mail.ru*

## HAYDER ALIYEV'S NEW OIL STRATEGY

**Zenfira Quliyeva**

**Summary**

This historical document, prepared under the leadership of the national leader, and later highly appreciated in the international world and rightly called the "Contract of the Century", has become a glorious page of the Great Leader's oil strategy. It is with this historical step that once again proving its independence, Azerbaijan demonstrated to the whole world that it has full ownership of its resources - the use of our national resources for the welfare of our independent state and people, the exploitation of hydrocarbon resources that have served the interests of the empire for decades, for the formation of a powerful and developed Azerbaijan, for this purpose bold political steps have been taken to attract foreign investments.

**Keywords:** contract of the century, oil policy, energy strategy

## HEYDƏR ƏLİYEVİN YENİ NEFT STRATEGİYASI

**Zenfira Quliyeva**

**Xülasə**

Ümummilli liderin rəhbərliyi altında hazırlanmış, sonradan isə beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş və haqlı olaraq "Əsrin müqaviləsi" adlandırılan bu tarixi sənəd Ulu öndərin neft strategiyasının şanlı səhifəsinə çevrilmişdir. Məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirmişdir-milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olunması, on illərlə imperiya maraqlarına xidmət etmiş karbohidrogen ehtiyatlarının qüdrətli və inkişaf etmiş Azərbaycanın formalaşması üçün istismarı, bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün cəsarətli siyasi addımlar atılmışdır.

**Açar sözlər:** Əsrin müqaviləsi, neft siyasəti, enerji strateqiyası

## Новая нефтяная стратегия Гейдара Алиева

**Зенфира Гулиева**

**Аннотация**

Этот исторический документ, подготовленный под руководством национального лидера, а впоследствии высоко оцененный в международном мире и по праву названный «Контрактом века», стал славной страницей нефтяной стратегии Великого вождя. Именно этим историческим шагом, еще раз доказав свою независимость, Азербайджан продемонстрировал всему миру, что он полностью владеет своими ресурсами - использование наших национальных ресурсов на благо нашего независимого государства и народа, эксплуатация углеводородных ресурсов, десятилетиями служили интересам империи, для формирования мощного и развитого Азербайджана, с этой целью были предприняты смелые политические шаги по привлечению иностранных инвестиций.

**Ключевые слова:** контракт века, нефтяная политика, энергетическая стратегия.

**Giriş.** "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları məbləğində investisiyanın 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli

strukturlarda axtarış-kəşfiyyat işlərinə yönəldilmişdir. Ulu öndər dünyanın inkişaf etmiş dövlətləri ilə imzaladığı “Əsrin müqaviləsi” ilə ölkəmizin davamlı və sürətli inkişaf ənənəsinin əsası qoyuldu-bu müqavilə Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasında yeni dövrün əsası oldu. Bu müqavilənin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başladı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. (6) Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi, eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması nümayiş etdirildi. “Əsrin müqaviləsi” Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı.

Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsini təmin etmək məqsədi ilə 1999-cu ildə Dövlət Neft Fondu yaradıldı-bununla neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü idarə edilməsi üçün əsaslı təminat yaradıldı. Azərbaycanın hər bir bölgəsində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılır, elektrik stansiyaları tikilir, qaz və su kəmərləri çəkilir, yollar salınır. İnfrastrukturun yeniləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, eyni zamanda, insanların rahatlığı, firavan yaşayışı üçün həyata keçirilən sosial yönümlü tədbirlərin mühüm tərkib hissəsidir. Artan neft gəlirləri hesabına sosial siyasət sayəsində, o cümlədən, az təminatlı təbəqələrin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də saysız tədbirlər həyata keçirilir. Ölkənin artan maliyyə imkanları hesabına, beynəlxalq əhəmiyyətli strateji infrastruktur layihələri də uğurla həyata keçirilir-bu layihələrdən biri olan Bakı-Tbilisi-Qars yeni dəmir yolunun inşası Azərbaycanın regionda siyasi nüfuzunun güclənməsinə təkan verməklə bərabər, respublikamızın Qərbə doğru inteqrasiyasına, Azərbaycan, Gürcüstan və Türkiyə arasında siyasi və iqtisadi münasibətlərin inkişafına şərait yaratdı, Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizinə çevrildi(1).

“Əsrin müqaviləsi”nin imzalanması Ulu Öndərin müstəsna xidməti idi-mövcud çətinliklər fonunda xarici şirkətlər Azərbaycana sərmayə yönəltməkdən çəkinirdilər. Dahi şəxsiyyət xarici investorların Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının işlənməsinə irihəcmli sərmayələr yönəltmələrinə nail oldu-Azərbaycanın bu gün beynəlxalq miqyasda uğurlu model kimi qəbul edilən davamlı inkişaf strategiyasının əsası da məhz “Əsrin müqaviləsi” ilə qoyulmuşdur. “Əsrin müqaviləsi” Ümummilli liderin bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətidir. Prezident İlham Əliyev uğurlu enerji siyasətində Ulu öndərin müstəsna rol oynadığını vurğulayaraq demişdir: “Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır.

“Əsrin müqaviləsi”nin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən yeni neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bu müqavilənin imzalanması ilə ölkəmiz yeni inkişaf erasına daxil oldu-neft strategiyası ölkəmizi lider ölkələr səviyyəsinə yüksəltmişdir. Əldə edilmiş gəlirlər davamlı şəkildə sosial layihələrə, elm, təhsil və mədəniyyətin inkişafına yönəldilmiş, “qara qızıl” “insan kapitalı” naminə istifadə edilməkdədir. “Əsrin müqaviləsi” həm də yeni transmilli enerji layihələrinin həyata keçirilməsində mühüm rola malikdir. Azərbaycanın liderliyi ilə həyata keçirilən yeni layihələr ölkəmizin iqtisadi qüdrətinin və dünya arenasında siyasi çəkisinin yüksəlməsini təmin etmişdir.

Ümumilikdə Azərbaycan neftinin Xəzər dənizindən dünya bazarlarına çıxarılması üçün Yer planetinin ekvatorunun uzunluğunun 1/10-i həddində neft kəmərləri tikilmişdir: Bakı-Novorossiysk (1330 kilometr), Bakı-Supsa (833 kilometr) və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (1768 kilometr).

2017-ci il sentyabrın 14-də Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması ilə “Əsrin müqaviləsi”nin müddəti 2050-ci ilə qədər uzadıldı-yeni Sazişin imzalanması ilə böyük ehtiyatlara malik bu yataqların işlənilməsində yeni mərhələ başladı.

Ümummilli lider xarici iri neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi və "Yeni neft strategiyası" tez bir vaxtda işlənib hazırlandı. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər onun iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. Ümummilli liderin "Yeni neft strategiyası"nın çox böyük uğurla reallaşması günümüzün reallığına çevrilmişdir-əldə olunan nailiyyətlər özünü aşağıdakı istiqamətlərdə göstərdi: *neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyaların cəlb edilməsi hesabına Azərbaycanın dünyanın enerji daşıyıcıları bazarına sürətlə çıxışı təmin edildi-bütövlükdə "Əsrin müqaviləsi"ndən bugünkü günə qədər xarici neft şirkətləri ilə 32 neft sazişi imzalanmışdır. Bu sazişlərin nəticəsi olaraq Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur ki, bu da respublikamızın iqtisadi inkişafına ciddi təsir göstərmişdir; *Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sistemi yaradıldı-hazırda hasil edilən neft və qaz ehtiyatları dünya bazarlarına bir neçə marşrut üzrə-Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərlər ilə çıxarılır-bundan əlavə, "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində TANAP qaz kəmərində istifadəyə verilmişdir. Bakı-Novorossiysk və Bakı-Supsa kəmərlərinin həm müsbət, həm də mənfi cəhətlərinin olmasına baxmayaraq Ümummilli lider müdrik və yeganə düzgün qərar qəbul edərək hər iki neft kəmərinin çəkilməsini lazım bildi. İlkin neft layihəsinin həyata keçirilməsi və onun dünya bazarına ixracı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarındakı işlərin intensivləşməsinə və Azərbaycanın karbohidrogen resurslarının işlənməsinə yeni investisiyaların cəlb edilməsi üçün şərait yaratdı.1999-cu ilin noyabrında İstanbulda ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistanın prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci ilin sentyabrın 18-də Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Azərbaycanın Enerji resuslarının nəqlində Bakı-Tbilisi-Ceyhan istiqamətinin seçilməsi Ümummilli liderin böyük siyasətinin qələbəsidir və bu kəmər dünya "arteriya"sı kimi neft kəmərləri sisteminə daxil olmuşdur; *Azərbaycanın milli sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsillər üçün toplanaraq artırıldı, bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməyə başlandı-bu məqsədlə 1999-cu il dekabrın 29-da Ümummilli lider "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" fərman imzalamışdır; * "Yeni neft strategiyası"nın həyata keçirilməsinin nailiyyətlərindən biri də Qərbin qabaqcıl texnologiyasının Azərbaycana gətirilməsidir-xüsusilə tikintidə və yataqların işlənilməsində, qazımada və istismarda tətbiq olunan yeni texnika, texnologiya və avadanlıqlar neft sənayesinə pozitiv təsir göstərmişdir. Azərbaycanda ilk dəfə olaraq Mərkəzi Azəri yatağında 48 quyunun qazılmasına imkan verən nəhəng və əzəmətli dərin dəniz özülü tikilmişdir. Texniki baxımdan dünya miqyasında ən iri terminallardan biri Səngəçal terminal istifadəyə verilmiş və burada yüksək infrastruktur yaradılmışdır(5).

1994-cü ildə "Əsrin müqaviləsi" ilə əsası qoyulan Azərbaycanın neft strategiyası çərçivəsində bu günə kimi xarici neft şirkətləri ilə ümumilikdə 27 neft sazişi imzalanmışdır-həmin sazişlər üzrə birgə işlənilməsi nəzərdə tutulan perspektiv strukturların sayı 30-dur: bu sazişlərdən 15-i Xəzərin Azərbaycan sektorunu, 12-si isə quru sahələri əhatə edir. Bu sazişlərdə Azərbaycan hökumətinin tərəfdaşları dünyanın 21 ölkəsini təmsil edən 43 şirkətdir-proqnozlara görə imzalanmış sazişlər çərçivəsində karbohidrogen resurslarının kəşfiyyatına, işlənilməsinə və nəqlinə ümumi sərmayə qoyuluşu 60 milyard ABŞ dolları həcmində olacaqdır. Neft strategiyası sayəsində milli iqtisadiyyatın əsasını təşkil edən neft-kimya, neft emalı sənayesi və bunlarla bağlı alt sahələrin müasir standartlara cavab verən infrastrukturu quruldu. Neft emalı və neftayırma sahəsində əldə edilən böyük təcrübə və mütəxəssis kontingenti sayəsində Azərbaycan hökuməti xarici ölkələrin adı çəkilən sahələrinə irihəcmli investisiya qoyuluşları etməyə başladı. Bu gün Gürcüstanda nəhəng

neft terminalı, Türkiyədə neft emalı zavodu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə məxsusdur. Azərbaycanın neftçi və mühəndisləri isə Moldovada neft yataqlarının kəşfiyyat və hasilatını öz üzərlərinə götürmüşdür.

“Əsrin müqaviləsi” Azərbaycan neft sənayesinin dönüş nöqtəsi və yenicə müstəqillik əldə etmiş Azərbaycanda neft strategiyasının həyata keçirilməsinin başlanğıcı hesab edilir-bu beynəlxalq neft layihəsinin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna əhəmiyyəti oldu. “Əsrin müqaviləsi” Azərbaycanda digər böyük layihələrin həyata keçirilməsi üçün zəmin yaratdı. 1999-cu ilin iyun ayından etibarən bp Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti-ABƏŞ-in vahid operatorudur. ABƏŞ-in iş proqramlarını və xüsusi layihələrin büdcəsini ARDNŞ, Azərbaycan hökuməti və xarici neft şirkətlərinin təmsilçilərindən ibarət Rəhbər Komitə təsdiq edir. 14 sentyabr 2017-ci ildə “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun işlənməsi üzrə Hasilatın Pay Bölgüsünün düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişi (PSA) imzalandı-başqa sözlə, “Əsrin müqaviləsi”nin müddəti 2050-ci ilədək uzadılmışdır(3).

“Əsrin müqaviləsi” beynəlxalq əməkdaşlığa, qlobal və regional təhlükəsizliyə töhfədir. Müasir Azərbaycanın nümunəsi əyani şəkildə bir daha təsdiq etdi ki, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi” ilə Azərbaycanda yeni neft strategiyası başlanmış və ötən müddətdə uğurla həyata keçirilmişdir. Bu strategiya ölkəmizin müstəqil gələcəyini, dünya dövlətləri ilə strateji tərəfdaşlığını, iqtisadi inkişafının uğurlu nəticələrini, beynəlxalq və regional aləmdəki aparıcı rolunu təmin etmiş və Azərbaycanın dünyanın qabaqcıl ölkələri sırasına çıxmasına təkan vermişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir Bakı 1998
2. Dövlətçilik naminə Bakı 2001
3. Xalqın böyük xilaskarı Bakı 2001
4. İlham Əliyev Azərbaycanıma inanıram Bakı 2007
5. Y.P.Əhmədov Bəşəriyyət mənəvi süqut ərəfəsindədir Bakı 2011
6. S.Xəlilov Lider. Dövlət. Cəmiyyət Bakı 2001
7. Kazımlı X. Böyük siyasətin davamı. Bakı, 2007